**UOT 327**

**Zəfər Nəcəfov**
***hərbi elmlər üzrə fəlsəfə doktoru***
***Milli təhlükəsizlik və Milli Müdafiə Universitetinin***
***Hərbi İdarəetmə İnstitutu***
***zafarnajafov@yahoo.com***
***ORCID iD: 0000-0002-1392-9359***
**https://doi.org/10.59849/2709-5096.2024.1.49**

# NİKOL PAŞİNYAN HÖKUMƏTİNİN HƏRBİ STRATEGİYASI

**Annotasiya**

*Məqalədə 2018-ci ildə N.Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistanın müdafiə strategiyasının "yeni müharibə - yeni ərazilər" formuluna keçidinin səbəbləri və 44 günlük müharibə nəticəsində onun iflası, işğalçı ölkənin yeni müdafiə strategiyasına keçid fəlsəfəsi, genişlənmə və təcavüzkar ruhu, ideoloji əsasları, geoiqtisadi imperativlər, "dolayı hərəkət strategiyası" və "yumşaq güc" anlayışı ilə əlaqəsi, eləcə də məğlubiyyətinin nəticələri araşdırılıb. Məqalədə 44 günlük müharibənin acı nəticələrinin Ermənistanın siyasi həyatında, ictimai rəyində və hərbi təhlükəsizlik strategiyasında zəruri dəyişikliklərin təməlini qoyacağı da qeyd olunur.*

***Açar sözlər:*** *"yeni müharibə-yeni ərazilər" formulu, Aprel döyüşləri, ekspansiya, asimmetrik müharibə, "dolayı hərəkət strategiyası" və "yumşaq güc" konsepsiyası, 44 günlük müharibə, təmassız müharibə.*

**Zafar Najafov**

# THE MILITARY STRATEGY OF THE NICOL PASHINIAN'S GOVERNMENT

**Annotation**

*The article discusses the reasons for the transition of Armenia's military strategy to the "new war - new territories" formula after N. Pashinyan came to power in 2018 and its bankruptcy as a result of the 44-day war. The article examines the philosophy of the transition to the new military strategy of the occupying country, its expansion and aggressive spirit, ideological foundations, geo-economic imperatives, its connection with the concept of "indirect action strategy" and "soft power", as well as the consequences of Armenia's defeat in the 44-day war. The article also mentions that the bitter consequences of the 44-day war will lay the foundation for necessary changes in Armenia's political life, public opinion, and military security strategy.*

***Keywords:*** *"new war-new territories" formula, April battles, expansion, asymmetric war, "indirect action strategy" and "soft power" concept, 44-day war, non-contact war*

**Giriş**

2016-cı ilin aprelində baş vermiş dördgünlük savaşda Azərbaycan Silahlı Qüvvələri Ermənistanın xeyli sayda canlı qüvvəsini məhv etdi və 2 min hektar ərazisini işğaldan azad etdi. Bu məğlubiyyət erməni cəmiyyətində, orduda mənəvi-psixoloji durumu aşağı saldı, hərbi rəhbərliyin bir sıra aparıcı xidmət rəisləri tutduqları vəzifələrdən kənarlaşdırıldı, müdafiə naziri S.Ohanyan isə öz vəzifəsi ilə vidalaşmalı oldu. Aprel döyüşlərinin ən mühüm nəticəsi Ermənistanı 1998-ci ildən bəri idarə edən Qarabağ klanının hakimiyyəti müxalifyönümlü N.Paşinyana təhvil verməsiylə nəticələndi. Aprel döyüşlərinin erməni cəmiyyəti üçün kabusa çevrilməsi bununla bitmədi. Mənəvi-psixoloji cəhətdən düşkün vəziyyətdə olan Ermənistan iki ilin tamamında daha bir ciddi zərbə almışdır. Belə ki, Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunmuş, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun nəzarəti altına keçmişdir. Döyüşlər nəticəsində, ümumi olaraq, 11 min hektarlıq ərazi azad olunmuşdur.

Aprel döyüşlərində və Günnüt əməliyyatlarında düçar olduqları məğlubiyyəti həzm edə bilməyən erməni millətçiləri “yeni müharibə - yeni ərazilər” formulunu ortaya atmaqla, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin coğrafiyasını genişləndirməyə və ölkənin strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirməyə cəhd etmiş, lakin İkinci Qarabağ müharibəsində acı məğlubiyyətlə barışmalı olmuşlar.

Məqalənin hazırlanmasında tarixi, politoloji, struktur - funksional və müqayisəli təhlil metodlarından istifadə edilib.

**Ermənistanın yeni müharibə planı**

Ermənistanda hakimiyyəti ələ keçirən N.Paşinyan öz siyasi mövqeyini möhkəmləndirmək, erməni cəmiyyətindəki ruh düşkünlüyünü aradan qaldırmaq, sarsılmış və mənəvi-psixoloji durumu aşağı düşmüş ordunu özünə tabe etdirmək məqsədilə bir sıra siyasi xarakterli manevrlər etməyə başladı. O, ölkədə sosial-iqtisadi problemlərin (kiçik biznes üçün verginin həcminin, hökumətdə nazirlik və idarələrin sayının azaldılması, ölkəyə sərmayə qoymaq istəyən xarici şirkətlər üçün vergi güzəştlərinin tətbiq edilməsi, iqtisadi inhisarı aradan qaldırmaqla, Ermənistanın kənd təsərrüfatı ölkəsindən yüksək texnologiyaya malik bir dövlətə çevrilməsi və s.) həlli istiqamətində təxirəsalınmaz işlərin görüləcəyi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli mümkünlüyü barədə fikirlər səsləndirməyə və bu yolla daxildə və xaricdə siyasi reytinq toplamağa başladı. Parlament seçkilərində qazandığı mütləq qələbədən (132 yerdən 88-nə onun lideri olduğu «Mənim addımlarım›› bloku yiyələndi) ruhlanmış N.Paşinyan öz siyasi rəqiblərini bir-bir sıradan çıxarmağa, hərbi və separatçı rejimin rəhbərliyində öz tərəfdarlarını yerləşdirməyə nail olduqdan sonra münaqişənin nizamlanması prosesində sərt və

barışmaz mövqe nümayiş etdirməyə, danışıqların formatını dəyişməyə cəhd etmiş və D.Tonoyanın müəllifi olduğu «yeni müharibə – yeni ərazilər›› formuluna keçidə xeyir-dua vermiş oldu.

Ermənistanın 2019-cu ildən həyata keçirməyə başladığı yeni müdafiə strategiyasını dərindən təhlil edərkən onun əsas postulatları qismində aşağıdakıları qeyd etmək olar:

**Müdafiə fəlsəfəsinin dəyişməsi: müdafiənin (səngərin) hücumla (ön cəbhə) əvəzlənməsi**

Belə ki, hələ 2019-cu ilin əvvəllərində Ermənistanın müdafiə naziri D.Tonoyan Ermənistanın müdafiə strategiyasını hücum strategiyası ilə əvəzləməklə ordu quruculuğu fəlsəfəsini dəyişmək niyyətində olması fikrini dilə gətirmişdir. Onun sözlərinə görə, müdafiənin təşkili ideologiyasına münasibətdə insanların düşüncələrində dəyişiklik müdafiə naziri olaraq onun üçün ən mühüm göstərici hesab edilir. Bəşər tarixi çoxdan sübut edib ki, əsas formulu səngər müdafiəsi hesab edilən istənilən ordu gec-tez məğlubiyyət acısı yaşayır. Qılıncla qalxanın əbədi mübarizəsinin hansısa məqamında qılınc qalib gəlir və bu həqiqət dəfələrlə özünü təsdiq edib. Erməni ordusu səngərdə oturmayacaq, günü-gündən daha döyüşqabiliyyətli, güclü və düşmən üçün olduqca təhlükəli olacaq. Biz – silahları müxtəlif, müasir və öldürücü olan bir orduyuq. Biz – döyüşçüləri mükəmməl təhsil alan, dövlətin himayəsində olan və ən mühüm missiyanı yerinə yetirməyə qabil olan bir orduyuq [1].

2019-cu ilin yazında ABŞ-da erməni diasporu ilə keçirdiyi görüşdə Ermənistanın müdafiə naziri D.Tonoyan bəyan etmişdir ki, «ərazi qarşılığında sülh›› formulunu dəyişərək, onu «yeni ərazilərin işğalı üçün yeni müharibə” formulu ilə əvəzləyib. «Biz bu «səngər vəziyyətindən”, daimi müdafiə vəziyyətindən çıxacağıq. Hərbi əməliyyatları düşmənin ərazisinə keçirə biləcək həmlə bölmələrimizin sayını artıracağıq” [2].

N.Paşinyan Aprel döyüşlərinin 3-cü ildönümü ilə eyni vaxta təsadüf edən bir tədbirdə müdafiə nazirinin irəli sürdüyü həmin formula bu cür dəstək vermişdir: *«David Tonoyan başqa bir açıqlama versəydi, mən onu müdafiə naziri vəzifəsindən azad edərdim. Müdafiə naziri nə dedi? Dedi ki, əgər müharibə olarsa, bu müharibədə qalib gəlmək üçün çalışacağıq. Müdafiə naziri başqa cür düşünsəydi, o zaman öz vəzifəsi ilə vidalaşmalı olacaqdı. Bu, heç bir halda münaqişənin həlli üçün sülh prosesinə kölgə salmır, əksinə, danışıqlar prosesinin vacibliyini vurğulayır”* [3].

Bu fikirlər onun danışıqlar deyil, açıq-aşkar müharibə tərəfdarı olduğuna dəlalət edir. Onun hakimiyyəti illərində Ermənistanın hərbi büdcəsinin nəzərə çarpan artımı belə düşünməyə dəlalət edir. 2020-ci ildə Ermənistanın müdafiə xərcləri 2018-ci ilə nisbətən 28% artmışdır. Belə ki, 2019-cu ildə işğalçı ölkə müdafiəyə təxminən 629,5 milyon dollar (2018-ci illə müqayisədə 129 mln. dollar artıq) sərf edib, 2020-ci ilin müdafiə büdcəsi isə təxminən 631 milyon dollar həcmində olub [4].

Ermənistanın müasir ordu quruculuğunda silahlanma ölkənin müdafiə siyasətinin strateji vektorlarından bəlkə də ən birincisi hesab edilib. Azərbaycan müasir silahlar aldığı bir vaxtda Ermənistanın kiçik maliyyə ehtiyatlarına malik olduğunu nəzərə alsaq, silahlanma parkında istənilən yenilik işğalçı ölkə üçün hərbi təhlükəsizliyin təmin edilməsi baxımından əhəmiyyətli hesab edilirdi. Rəsmi İrəvanın fikrincə, Ermənistanın əldə etdiyi hər bir müasir silah son bir neçə il ərzində digər oyunçuların xeyrinə dəyişmiş güc balansının bərpa edilməsinə xidmət edib.

N.Paşinyanın hakimiyyətə gəlişi işğalçı ölkənin yeni silahlarla silahlanmasına mane olmayıb. Ermənistan demək olar ki, bütün silahları Rusiyadan idxal edib. Xatırladaq ki, 2018-2019-cu illərdə Ermənistan xeyli miqdarda silah və sursat – çoxfunksiyalı Su-30SM qırıcıları, TOR-M2KM və Osa-AK zenit-raket sistemləri və digər silah və hərbi texnika əldə edib və Su-30SM qırıcılarının yeni partiyasının alınması barədə danışıqları davam etdirib. Bu təyyarələrdən dördü 2019-cu ildə Ermənistan Hərbi Hava Qüvvələrinin silahlanmasına daxil edilib. Su-30SM həm hava, həm də yerdəki hədəfləri məhv etmək üçün nəzərdə tutulub. [5].

Hərbi-texniki əməkdaşlıq üzrə Rusiya Federal Xidmətinin rəhbəri Dmitri Şuqayev 2019-cu ildə Ermənistana Su-30SM, atıcı silahlar, Mi-17 helikopterlərinin ehtiyat hissələrinin təhvil verildiyini və əvvəllər çatdırılmış təyyarələrin əsaslı təmir edildiyini və «Kornet"lərin (tank və zirehli hərbi maşınların məhv edilməsi üçün nəzərdə tutulub) istismarı üzrə mütəxəssislərə təlim keçirildiyini dilə gətirib. Bu siyasəti yürütməklə Ermənistan regional militarizasiya və qızğın silahlanmaya təkan verib, Cənubi Qafqazın demilitarizasiyasına zidd siyasi xətt yürüdüb. SİPRİ-nin məlumatlarına görə, 2019-cu ildə Ermənistan ÜDM-in 4,9%-ni hərbi məqsədlər üçün xərcləyib. Elə həmin il hərbi xərclərin ÜDM-ə nisbəti baxımından Ermənistan dünyanın bütün ölkələri arasında altıncı yeri tutub [6].

N.Paşinyanın rəhbərliyi altında hazırlanmış «2050-ci ilədək Ermənistanın transformasiyası Konsepsiyası"nda qeyd edilib ki, həmin tarixə qədər Ermənistan ordusu dünyanın ən döyüşqabiliyyətli 20 qabaqcıl ordusu sırasında yer almalıdır. "Məhz bu səbəbdən hər bir əsgərimiz potensial düşmənin 7 və ya 10 əsgərinə müqavimət göstərmək iqtidarında olmalıdır. Təbii ki yalın əllə yox" – deyə o bildirib. Eyni zamanda, həmin sənəddə Ermənistan xüsusi xidmət orqanının yaxın 30 il ərzində dünyanın ən yaxşı 10 kəşfiyyat orqanları arasında yer alması arzusu ifadə olunub [7].

**İşğal coğrafiyasının genişlənməsi məqsədilə yeni münaqişə ocaqlarının yaranması**

Bu məntiq düşmənin hərbi əməliyyatları Azərbaycanın yeni ərazilərinə keçirməsi istəyindən qaynaqlanıb. 2020-ci lin 12-16 iyul tarixlərində baş vermiş Tovuz təxribatı buna misaldır. Düşmən yeni münaqişə ocağı yaratmaqla diqqəti işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik 7 rayonundan yayındırmağa, danışıqları arxa plana keçirməyə, münaqişə bölgəsində mövcud status-kvonu saxlamağa

çalışırdı. Bu plan Rusiyanın Krımı ilhaqından sonra yürütdüyü siyasəti xatırladırdı. 2014-cü ildə Krımın ilhaqından sonra Rusiya beynəlxalq təzyiqləri bitərəfləşdirmək məqsədilə Ukraynanın cənubunda "Luqansk Xalq Respublikası (ЛНР)" və "Donetsk Xalq Respublikası (ДНР)" adlı separatçı qurumlar yaratdı və hərbi-siyasi proseslərin ağırlıq mərkəzini ora keçirdi.

**Yeni strategiyanın ideoloji dayaqları**

Burada əsas məqsəd erməni kimliyi məsələsi ətrafında cərəyan edir. Ermənistan separatçı ''DQR'' ilə vahid təhlükəsizlik sisteminin yaradılmasını öz yeni Milli Təhlükəsizlik Strategiyasına daxil edib [8]. Bu şərtin ideya məzmunu "Miatsum"la (erməni dilində "birləşmə") sıx bağlıdır. Məlumdur ki, "DQR"ə münasibətdə Ermənistanın işğalçılıq planında separatçı rejimin müstəqilliyi deyil, onun Ermənistana birləşməsi əsas yer tutub. N.Paşinyanın məqsədi separatçı «DQR"i Ermənistanın təhlükəsizlik sisteminə inteqrasiya etməklə "Miatsum"u leqallaşdırmaq, qondarma qurumu anklav vəziyyətindən çıxarmaq, bütün parametrlər üzrə onu rəsmi İrəvanın tabeliyinə keçirtmək idi. 44 günlük müharibəyədək Ermənistanla qondarma qurum arasında strateji ittifaq haqqında sənədin hazırlanması üzərində işlər davam edirdi. Belə bir sənədin qəbulu de-yure olmasa da, de-fakto "DQR"in Ermənistan tərəfindən tanınması anlamına gəlirdi.

Ermənistan prezidenti A.Sarkisyan Dağlıq Qarabağda erməni separatizmini "erməni kimliyi" və "panarmenizm" anlayışları ilə əlaqələndirirdi. O, 1991-ci il sentyabrın 2-də erməni separatçılarının Dağlıq Qarabağda keçirdikləri qeyri-qanuni referendum nəticəsində əldə etdikləri "müstəqilliyin" 29-cu ildönümünə toxunaraq qeyd etmişdir ki, "həmin qələbə" ümumerməni qüvvələrinin – separatçı rejimin, Ermənistanın və diasporun birgə səyləri nəticəsində əldə edilmiş və həmin mübarizə bu gün də davam edir [5]. Ermənistan prezidentinin sonuncu fikri də separatçı rejimin ayrılma cəhdlərinin Ermənistan və diaspor tərəfindən açıq-aşkar dəstəklənməsi mənasını verirdi.

**Yeni strategiyanın geoiqtisadi prioritetləri**

Bu, Azərbaycanın beynəlxalq neft-qaz xətlərini, o cümlədən digər mühüm strateji infrastrukturlarını – Bakı-Tbilisi-Qars (BTQ) və Bakı-Qazax avtomagistralını nəzarətə götürmək anlamına gəlirdi. Tovuz Azərbaycan Respublikasının şimal-qərbində əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Rayon ərazisindən Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Cənub Qaz Dəhlizi (TANAP-TAP) və Böyük İpək Yolu keçir. Cənub Qaz Dəhlizinin Avropa hissəsini TAP boru kəməri təşkil edir. 878 km uzunluğa malik bu kəmər Türkiyə-Yunanıstan sərhədində TANAP-a birləşir. Boru kəməri Avropada Yunanıstan, Albaniya və Adriatik dənizinin dibindən keçərək İtaliyanın cənubunda bitir. TAP-ın ilkin ötürücülük qabiliyyəti 10 milyard kubmetrdir. Gələcəkdə əlavə kompressorlar

vasitəsilə bu həcmin 20 milyard kubmetrə çatdırılması gözlənilir. 2021-ci il yanvarın 1-dən TAP istismara buraxılıb.

2020-ci ilin 12-16 iyul hadisələri zamanı Ermənistanın hərbi əməliyyatlar səhnəsi qismində Tovuzu seçməsi məhz qeyd edilən məqsədlə əlaqəli hesab edilir. Bunu Rusiyanın xarici işlər naziri S.Lavrov da etiraf etmişdir. O qeyd etmişdir ki, münaqişə tam bir kompleks səbəblər nəticəsində baş verib. Coğrafi amil də bir növ tətik rolunu oynayıb: Ermənistan tərəfinin Azərbaycanın ixrac boru kəmərlərindən 15 km aralıda yerləşən köhnə nəzarət-buraxılış məntəqəsini yenidən işə salmaq qərarı bir tərəfin narahatlığına, o biri tərəfin isə əsassız reaksiyasına səbəb olub və nəticədə ən gözlənilməz nəticələri olan qarşıdurma çarxı işə salınıb [9].

Ermənistan Azərbaycan ərazisindən Avropaya uzanan beynəlxalq neft-qaz və strateji nəqliyyat və kommunikasiya xətlərinin keçdiyi ərazini hərbi əməliyyatlar meydanına çevirməklə, bu layihələrin fəaliyyətini pozmağa, həm onları, həm də Bakı-Qazax avtomagistralını zərbə altında saxlamağa, Gürcüstan strateji dəhlizini bağlamağa, Ağstafa və Qazax rayonlarını təcrid həlqəsinə salmağa və bu yolla Azərbaycana təzyiq etməklə onun danışıqlar prosesində mövqeyini zəiflətməyə çalışıb.

**Yeni strategiyanın asimmetrik müharibə, “dolayı fəaliyyətlər strategiyası” və “yumşaq güc” konsepsiyası ilə əlaqəsi**

Yeni strategiya hərəkətlərin sinxronizasiyasından xəbər verirdi. Bu versiya əməliyyat məharətinin konvensional və qeyri-konvensional savaş elementlərinin sintezinə (hibrid) söykənirdi. PKK və Livandan gətirilmiş erməni ailələri adı altında terrorçuların (bu fəaliyyət “terrorçuların sivilləşməsi” adlanır) münaqişə bölgəsinə yerləşdirilməsi düşünülmüş addım idi. Belə ki, 1991-1994-cü illərdə baş vermiş hərbi əməliyyatlar zamanı Ermənistanın Yaxın Şərqdə təlim keçmiş erməniəsilli terrorçu və muzdlulardan təşkil edilmiş «Arabo” kimi cinayətkar qrupun köməyindən yararlanmağa çalışmışdır. Atəşkəs rejimi imzalandıqdan sonra Ermənistanın işğal olunmuş əraziləri erməni və PKK terrorçu ailələri ilə doldurması onun gələcəkdə labüd müharibə şəraitində ölkəmizə qarşı asimmetrik müharibə aparmaq istəyindən xəbər verirdi. Rəsmi İrəvanın həmlə bölmələri qismində və ya onların tərkibində həmin terrorçu və muzdlu qüvvələrdən istifadə edə biləcəyi şübhə doğurmurdu.

Bundan əlavə, işğalçı dövlətin “yeni müharibə – yeni ərazilər” formulunu gerçəkləşdirmək məqsədilə xüsusi texnologiyalardan – «dolayı hərəkətlər strategiyası” və «yumşaq güc”dən yararlana bilməsi heç də az ehtimal olunmurdu. “Dolayı hərəkətlər strategiyası”nı elmə B.Liddell Hart gətirib. Həmin strategiyanın məqsədi müharibə zamanı düşmən üzərində sürətli qələbəyə nail olmaq üçün onun ordusunun arxa cəbhə obyektlərinə və kommunikasiyalarına kütləvi zərbələr endirmək, bu yolla müharibə zamanı düşmənin güvəndiyi arxa cəbhədə maddi baza və nəqliyyat infrastrukturunu məhv etməkdir. Bu, rəqib ölkənin ordusunu səmərəli mübarizə aparmaq və uzunmüddətli müqavimət göstərmək qabiliyyətindən məhrum edir.

B.Liddell Hart müharibənin əsas məqsədinin düşmən dövlətin silahlı qüvvələrinin və onun iqtisadi potensialının tamamilə məhv edilməsində deyil, əksinə, "düşmən" ölkənin hakim dairələrinin (hətta bir neçə düşmən dövlətin) təcavüzkar dövlətin siyasi, iqtisadi və hərbi maraqlarına tam cavab verəcək şərtləri qəbul etməyə məcbur edilməsində görüb. Hazırda «dolayı hərəkətlər strategiyası" beynəlxalq aləmdə həqiqi və potensial düşmənin zəifləməsi üçün istifadə olunan ən təsirli geosiyasi mübarizə vasitəsidir. O «düşmən» dövlətin siyasi və idarəetmə, sosial-iqtisadi, müdafiə, mədəni, ideoloji və digər əsas sahələri üzərində üstünlüyü ələ keçirməyə yönəldilmişdir [10,c.30]. Bu geosiyasi qarşıdurma strategiyasına görə, təcavüzkarın qurban ölkəyə təzyiqi həm birbaşa qarşıdurmanın olmadığı, həm də silahlı qarşıdurma da daxil olmaqla açıq münaqişə şəraitində, həyata keçirilə bilər. Düşmən Tovuz istiqamətində Azərbaycanın həyati mühüm neft-qaz xətlərinə və digər kommunikasiya infrastrukturlarına yiyələnməklə danışıqlar prosesində üstünlük qazanmaq, öz şərtlərini diqtə etmək və ya öz maraqlarına uyğun şərtləri qəbul etdirmək məqsədi güdüb.

"Yumşaq güc" isə nəinki beynəlxalq siyasi proseslərin həyata keçirilməsi üçün əlavə bir resursdur, həm də müəyyən bir şəkildə pozucu təsir vasitəsi, informasiya müharibəsində bir silah kimi başa düşülür. "Yumşaq güc" bütövlükdə dövlətin sabitliyini zəiflədir, dövlətin sosial nizamına ciddi ziyan vurur.

"Yumşaq güc" tarixi proseslərin gedişinə, dünya nizamının dəyişməsinə ciddi təsiri ilə yadda qalıb. Sənaye inqilabı, informasiya əsri və "soyuq müharibə"nin finalı məhz "yümşaq güc"ün tətbiqi nəticəsində əldə edilmiş nailiyyətlər hesab edilir.

İnformasiya müharibəsi silahlı əməliyyatlardan fərqli olaraq daha davamlı və təsirli mübarizə vasitəsidir. Şübhəsiz ki, Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi və törətdiyi bəşəri cinayətlərə görə cəzasız qalması onun apardığı informasiya müharibəsinin nəticəsidir. Ermənistan Azərbaycana qarşı «yumşaq güc"ün elementlərindən – diaspor, xalq diplomatiyası, lobbi strukturları, sosial şəbəkələr və s.-dən yararlanıb və bu gün də yararlanmaqdadır. Bir əsrdən çox müddətdə dünyanın müxtəlif nöqtələrində erməni millətçiləri "yümşaq güc" elementlərinin köməyi ilə işğalçı və təcavüzkar ruhlu «Böyük Ermənistan" planının gerçəkləşməsi üçün əlverişli ideoloji-siyasi zəmin hazırlamağa, ölkəmiz haqqında həqiqətə zidd məlumatlar yaymağa nail olmuşlar.

Ermənistan 2020-ci ilin yayında qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyasında "yumşaq güc"ün normativ-hüquqi təsbitini verib [8]. Bu meyil işğalçı ölkənin bundan sonra da «yümşaq güc"ün elementlərindən Azərbaycana münasibətdə həm dinc dövrdə, həm də müharibə zamanı geniş istifadə edəcəyinə dəlalət edir.

**Nəticə**

Beləliklə, 2020-ci ilin 27 sentyabrınadək olan müddətdə Ermənistanın yeni müdafiə strategiyası hücum xarakterli və təcavüzkar ruhlu olmuş, münaqişə ocaqla-

rının plüralizminə əsaslanmış və yayındırıcı məqsəd güdmüş, konsensusu deyil, qarşıdurmanı və zorakılığı təbliğ etmiş, konstruktiv danışıqlara yox, imitasiyaya meyilli olmuş, “dolayı hərəkətlər strategiyası”na və «yumşaq güc›› vasitələrinə ciddi önəm vermiş və bütövlükdə isə regionda dezinteqrasiyaya və militarizasiyaya xidmət etmişdir.

Lakin 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsi Ermənistanın 2019-cu ilin yazında qəbul etdiyi “yeni müharibə - yeni ərazilər” formulunu və 2020-ci ilin yayında Milli Təhlükəsizlik Strategiyasının Dağlıq Qarabağla bağlı müddəalarını ciddi şəkildə iflasa uğratmış oldu. Bu müharibə zamanı işğalçı ölkənin təqribən 4 milyard dollar məbləğində hərbi texnikası sıradan çıxarılmış və yə qənimət götürülmüşdür. Ermənistan nəinki işğal etdiyi təhlükəsizlik zolağı kimi tanınan Azərbaycan rayonlarının bəzilərini döyüşdə, bəzilərini isə təslimat sənədi kimi xarakterizə edilən 10 noyabr tarixli Üçtərəfli Bəyanatına əsasən itirmiş oldu.

Bundan əlavə, Ermənistan öz ərazisindən strateji tərəfdaşı Rusiya ilə münasibətlərini korlamış oldu və nəhayət, tarixi düşmən kimi dəyərləndirdiyi Türkiyənin Cənubi Qafqazda mövqeyinin möhkəmlənməsi ilə barışmalı oldu.

44 günlük müharibə Ermənistan ordusunun müasir hərb məharətindən çox uzaqda olduğunu, ötən ilin 90-cı illərinə xas hərb təfəkkürü ilə vuruşduğunu üzə çıxartdı. Ermənistanın baş naziri N.Paşinyan “44 günlük müharibənin kökləri” adlı məqaləsində etiraf edib ki, 22 illik qələbədən sonra – 2016-cı ildə baş vermiş Aprel döyüşlərində Ermənistan Ordusunun 80-cı illərin silahı ilə vuruşduğu məlum oldu və bu da münaqişənin həllinin yubadılması dövrünə son qoydu [11]. Yəni, Aprel döyüşlərində Azərbaycanın nümayiş etdirdiyi müasir silahlar və qazandığı üstünlük artıq Ermənistanın münaqişənin həllini yubatmaq taktikasının başa çatması anlamına gəlirdi. Bu isə güclü rəqibi qarşısında Ermənistanın 22 illik danışıqlar imitasiyasının sona çatması və labüd müharibənin yaxınlaşması ehtimalını artırırdı.

Maraq doğuran məsələ ondan ibarətdir ki, N.Paşinyan Ermənistan ordusunun 80-cı illərə məxsus silah və sursat ilə vuruşduğunu bilə-bilə Azərbaycanı 44 günlük müharibəyə təhrik etdi. Bu reallığı Ermənistan prezidenti A.Sarkisyan da çox gözəl anlayırdı. O, da N.Paşinyan kimi, öz çıxışlarının birində etiraf etmişdir ki, Azərbaycan Ordusu müasir döyüş təcrübəsinə yiyələndiyi halda, Ermənistan Ordusu Birinci Qarabağ müharibəsinin uğuru ilə qürrələnirdi. Azərbaycan demoqrafiya, informasiya müharibəsi, yeni silah sistemləri və dronlar hesabına Ermənistanı üstələyə bildi [12].

Hər iki erməni liderinin bu etiraflarında 44 günlük müharibədə Ermənistanın məğlub olma səbəblərinin obyektiv təhlilindən daha çox onların məsuliyyətdən yayınmaq cəhdi diqqəti cəlb edir.

Lakin bir həqiqət danılmazdır ki, İkinci Qarabağ müharibəsində müasir savaş texnikasına mükəmməl yiyələnmiş və yüksək motivasiyalı Azərbaycan əsgərinin

qarşısında mənəvi-psixoloji vəziyyəti aşağı səviyyədə olan və müasir hərb məharətindən anlayışı olmayan bir ordu dayanmışdı. Erməni hərbi analitik V.Ambarçumyan 44 günlük müharibədə Ermənistanın məğlubiyyət səbəblərini təhlil edərkən haqlı olaraq qeyd edir: "*Azərbaycan təmassız müharibə konsepsiyasını inkişaf etdirdiyi bu illər ərzində erməni generaliteti 90-cı illərin hərbi metodları ilə işləməli olmuşdur. Bu faciəli səhv idi. Ermənistan beşinci və ya altıncı nəsil müharibələrə cavab verməyən hərbi konsepsiyasını dəyişməlidir*." [13].

44 günlük müharibədən sonra Ermənistanda yaranmış siyasi xaos, mənəvi ruh düşkünlüyü və ümidsizlik nəinki ölkənin siyasi həyatında, hətta erməni milli şüurunda transformasiyaya, xarici siyasət və hərbi təhlükəsizlik strategiyasında zəruri dəyişikliyə gətirəcəyi istisna edilmir. Ermənistan regionda yaranmış yeni status-kvonun tələbləri ilə barışmalı, qonşularına qarşı ərazi iddialarından əl çəkməli, regional əməkdaşlıq üçün yaranmış bu şansdan bəhrələnməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. «Меч в какой-то момент победит щит»: Тоноян обрисовал новую стратегию армянской армии: [Электронный ресурс] / Спутник Армении. – Ереван, 30.12.2019.

https://ru.armeniasputnik.am/20191230/Mech-v-kakoy-to-moment-pobedit-schit-Tonoyan-obrisoval-novuyu-strategiyu-armyanskoy-armii-21583682.html

2. Министр обороны Армении предупреждает: «Новая война – новые территории»: [Электронный ресурс] / Regnum.ru. – Москва, 31 марта, 2019.

https://regnum.ru/news/2602031

3. «Если бы Давид Тоноян сделал другое заявление, я бы его освободил с поста министра обороны» - Пашинян: [Электронный ресурс] / Радио Азатутюн – Ереван, Апрель 02, 2019

https://rus.azatutyun.am/a/29856658.html

4. Военный бюджет Армении в 2020 году составит $ 625 млн: [Электронный ресурс] / Vereleq – Ереван, 30.09.2019.

https://verelq.am/ru/node/53681

5. Ermənistan-Azərbaycan cəbhəsində bu ilin payızı qaynar olacaq – Ekspert: [Elektron resurs] / Eurasia Diary. – Bakı, 03.09.2020.

https://ednews.net/az/news/interview/438215-ermenistan-azerbaycan-cebhesinde-bu-ilin-payizi-qaynar-olacaq

6. 26 Avqust səfəri Rusiyanın bəraət qazanmasına xidmət edəcəkmi?: [Elektron resurs] / Eurasia Diary. -– Bakı, 24.08.2020. URL:https://ednews.net/az/news/analytical-wing/437664-26-avqust-seferi-rusiyanin-beraet-qazanmasina-xidmet-edecekmi

7. Пашинян представил Стратегию трансформации Армении: [Электронный ресурс] / Спутник Армении. – Ереван, 21 сент. 2020 г. https://ru.armeniasput-

nik.am/20200921/Nuzhno-znat-kuda-idti-Pashinyan-predstavil-strategiyu-razvitiya-Armenii-24540011.html

8. Новая Стратегия национальной безопасности Армении. 10 июл. 2020 г.

9. Лавров назвал причину июльского противостояния на ... : [Электронный ресурс] / MÜSAVAT Общественно-политическая интернет газета. -– Bakı, 21 авг. 2020 г. https://musavat.biz/ru/news/lavrov-nazval-neozhidannuyu-prichinu-i-yulskoj-vojny-mezhdu-azerbajdzhanom-i-armeniej_728291.html

10.Карякин В.В. Стратегии непрямых действий, «мягкой силы» и технологии «управляемого хаоса» как инструменты переформатирования политических пространств // Информационные войны – №3 (31) 2014. – с. 29-38

11. «Истоки 44-дневной войны»: Статья премьер-министра Никола Пашиняна: [Электронный ресурс] / Echo.am. – Ереван, 4 Января 2021.

https://ru.echo.am/political/istoki-44-dnevnoj-vojny-statya-premer-ministra-nikola-pashinyana/

12. Каждый армянин должен думать об Армении, как о своем ... [Электронный ресурс] / Арменпресс.ам. – Ереван, 29 Ноябрь 2020.

https://armenpress.am/rus/news/1036216.html

13.»Сценарий войны в Карабахе разработали в НАТО»: эксперт о новой военной концепции Армении: [Электронный ресурс] / Спутник Армении. – Ереван, 29.01.2021. https://ru.armeniasputnik.am/politics/20210129 https://ru.armeniasputnik.am/20210129/Stsenariy-voyny-v-Karabakhe-razrabotali-v-NATO-ekspert-o-novoy-voennoy-kontseptsii-Armenii-26260754.html